# Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2017-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına dair hesabat MƏRUZƏSİ

(Əvvəli 4-cü səhifədə).

2017-ci ilin birinci rübündə vətəndaşların qəbulu istiqamətində də müvafiq işlər görülmüşdür. Belə ki, rüb ərzində 199 nəfər vətəndaş rayon icra hakimiyyətinin başçısı tərəfindən qəbul edilmişdir. Qəbula gələn vətəndaşların müraciəti ilə bağlı lazımi tədbirlər həyata keçirilmiş, onların haqlı tələbləri qanunamüvafiq qaydada həll edilmişdir.

Eləcə də ilin ötən dövrü ərzində rayon icra hakimiyyəti başçısının 9 səyyar görüş-qəbulu olmuşdur. Qəbullarda 1108 nəfər iştirak etmişdir. Onlardan 67 nəfər müxtəlif təkliflər irəli sürmüşdür.

İrəli sürülən təkliflərin və müraciətlərin 57-si həll edilmiş, 5 məsələnin həlli ilə bağlı müvafiq izahat verilmiş, digər 5 məsələnin həlli isə rayon icra hakimiyyətinin səlahiyyətlərinə aid olmadığına görə respublikanın əlaqədar təşkilatları qarşısında məsələ qaldırılmışdır.

Görülmüş işlərin nəticəsidir ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə 2017-ci ilin birinci rübündə vətəndaşlardan daxil olan ərizələrin sayı 91 ədəd, şifahi müraciət edənlərin sayı isə 163 nəfər azalmışdır.

**Hörmətli yığıncaq iştirakçıları!**

İclasa yekun vuran cənab İlham Əliyev 2017-ci ilin ilk aylarının yaxşı nəticələrlə yekunlaşdığını bildirmişdir. Makroiqtisadi sabitliyin möhkəmləndirilməsini önəmli məsələlərdən biri adlandıran cənab Prezident vurğulamışdır ki, süni qiymət artımına yol verilməməlidir. Dövlət büdcəsinin icrasının uğurla getdiyini, bu ilki investisiya proqramının tam şəkildə icra edilməsinin vacibliyini, ölkə üçün ən lazımlı layihələrə vəsaitin ayrıldığını, maliyyə vəziyyətimizin yaxşı olduğunu bildirən dövlətimizin başçısı valyuta ehtiyatlarımızın xarici borcumuzdan 5 dəfədən çox olduğunu söyləmiş və bunu yaxşı nəticə adlandırmışdır. Diqqətə çatdırmışdır ki, bu il inşaat sektorunda canlanma müşahidə edilir. Bu isə ötən il görülən işlərin, qəbul edilən qərarların nəticəsidir. Bakıda 300-dən çox yeni hündürmərtəbəli bina tikilir və minlərlə yeni iş yeri yaradılır. Paytaxtımızın müxtəlif yerlərində müddəti keçmiş, yararsız vəziyyətdə olan binalar sökülür, həmin binalarda yaşayan vətəndaşlara ya kompensasiyalar ödənilir, yaxud da kirayə pulu verilir. Birinci belə pilot layihə Sabunçu rayonunda icra edilmişdir. Bu prosesin artıq geniş vüsət aldığını, mikrorayonlarla bağlı layihənin də icra ediləcəyini deyən cənab İlham Əliyev binaların birinci mərtəbələrində uşaq bağçalarının inşa edilməsini tapşırmış və bu yolla da uşaq bağçası probleminin həll ediləcəyini söyləmişdir.

Cənab Prezident sənaye istehsalı və kənd təsərrüfatı sahələrini prioritet sahələr adlandırmışdır. Rayonlarda sənaye zonalarının yaradıldığını deyən dövlətimizin başçısı kənd təsərrüfatının inkişafı üçün bu il 150 min hektar əlavə torpaq sahəsinin suvarılmasının nəzərdə tutulduğunu, yeni emal zavodlarının istifadəyə veriləcəyini qeyd etmiş və görüləcək işlərin bu sahədə artıma səbəb olacağını vurğulamışdır.

Qeyri-neft sektorunun istehsal etdiyi məhsulların ixracı ilə bağlı məsələyə toxunan dövlətimizin başçısı Azərbaycan brendinin dünyada təbliğ edildiyini, müxtəlif ölkələrdə ticarət evlərinin yaradıldığını, ticarət-ixrac missiyalarının həyata keçirildiyini bildirmişdir. Bu istiqamətdə xarici mediada reklam kampaniyalarının aparılmasının, yeni ixrac bazarlarına çıxışın təmin edilməsinin, logistika mərkəzlərinin yaradılmasının vacibliyini söyləmişdir. Həmçinin il ərzində infrastruktur layihələrinin, o cümlədən elektrik enerjisi ilə təminat, qazlaşdırma, içməli su, yolların inşası layihələrinin icrasına diqqət yetiriləcəyini qeyd etmişdir. Bakı şəhərində "Sovetski" adlanan ərazinin abadlaşacağını, yeni gözəl istirahət məkanının yaradılacağını deyən dövlətimizin başçısı sosial-infrastruktur layihələrinin icra olunduğunu, modul tipli 3 məktəbin tikildiyini, əlavə 12 belə məktəbin inşasının nəzərdə tutulduğunu söyləmişdir. Bu ilin birinci rübündə 13 tibb müəssisəsinin tikildiyini və ya əsaslı təmir edildiyini deyən cənab İlham Əliyev ilin sonunda daha iki olimpiya kompleksinin istifadəyə verilməsinin nəzərdə tutulduğunu bildirmişdir.

Bölgələrdə məşğulluğun artırılmasının daim diqqətdə saxlanılmasının vacibliyini bildirən dövlət başçısı sahibkarlığın inkişafı ilə bağlı güzəştli kreditlərin verilməsi prosesinin davam edəcəyini diqqətə çatdırmışdır.

Yekunda dövlətimizin başçısı bundan sonra da müsbət dinamikanın saxlanılacağını vurğulamışdır.

**Hörmətli yığıncaq iştirakçıları!**

2017-ci ilin birinci rübü ərzində rayonumuzda görülən işlər və bu işlərin yerinə yetirilməsi istiqamətində rayon icra hakimiyyətinin, digər idarə, müəssisə və təşkilatların fəaliyyəti barədə Sizə qısa məlumat verdim.

Əldə edilən uğurlar bizi qarşımızda duran məsuliyyətli vəzifələrin daha inamla həyata keçirilməsinə ruhlandırır. Əminliklə bildirmək istəyirəm ki, Qəbələ Rayon İcra Hakimiyyəti əlamətdar və tarixi hadisələrlə zəngin olan 2017-ci ili daha böyük nailiyyətlərlə başa çatdırmaq üçün fəaliyyətini genişləndirəcək, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstəriş və tövsiyələrini, eyni zamanda qanunvericiliklə üzərinə düşən vəzifələrin yerinə yetirilməsinin təmin edilməsi ilə bağlı lazım gələn bütün tədbirləri bundan sonra da həyata keçirəcəkdir.

**Diqqətinizə görə sağ olun.**

## «Vətənin Müdafiəsinə hazıram» poliatlon çoxnövçülüyü üzrə rayon birinciliyi

Gənclər və İdman idarəsinin təşkilatçılığı ilə Qəbələ şəhər 3 saylı tam orta məktəbdə yaz çağırışına həsr edilmiş "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü üzrə rayon birinciliyi keçrilmişdir.

Yarışın keçirilməsində məqsəd yeniyetmə və gəncləri vətənin müdafiəsinə mənəvi və fiziki cəhətdən hazırlamaq, gənclərdə vətənə məhəbbət və vətənpərvərlik hissini artırmaq, çağırış və çağırış yaşına qədərki gənclərin hərbi hazırlığını gücləndirmək, idmançılarda yarış təcrübəsini və ustalığı artırmaqdan ibarətdir.

Tədbirin açılış mərasimində Qəbələ Rayon Gənclər və İdman İdarəsinin rəisi Fəxri Soltanov respublikada idmana göstərilən dövlət qayğısından danışmış, yarışın vəzifələri barədə məlumat verərək idmançılara nailiyyətlər arzulamışdır.

Beynəlxalq Poliatlon Çoxnövçülüyü Assosiasiyasının qaydalarına əsasən 100 metr məsafəyə qaçış, turnikdə dartınma və qumbara atma üzrə keçirilən birincilikdə rayonun tam orta məktəblərindən 20-dək komanda iştirak etmişdir.

Yarışın yekun nəticəsinə əsasən Əmirvan kənd tam orta məktəbin komandası I, Qəbələ şəhər 3 saylı tam orta məktəbin komandası II və Soltannuxa kənd tam orta məktəbin komandası III yeri tutmuşlar. Qalib komandalara gənclər və idman idarəsinin diplomları təqdim edilmişdir. Birinci yeri tutmuş Əmirvan kənd tam orta məktəbin komandası respublika çempionatının zona mərhələsində iştirak etməyə vəsiqə qazanmışdır.

✍ **Elçin Osmanov,**
**gənclər və idman idarəsinin**
**aparıcı məsləhətçisi.**

## Sərgi maraqla qarşılanıb

***Beynəlxalq idman aləmində mühüm hadisələrdən olacaq IV İslam Həmrəyliyi Oyunlarının Vətənimizin paytaxtında başlanmasına çox az vaxt qalıb. 57 müsəlman ölkəsinin 3000 nəfərdən çox idmançısının bir araya gələcəyi bu tədbirə hazırlıq işləri demək olar ki, başa çatmışdır. İslam Həmrəyliyi Oyunlarının yüksək səviyyədə keçməsi, onun hər tərəfli təbliğ olunması, üçün ölkəmizin hər bir vətənpərvər oğul və qızı üzərinə düşən vəzifəni layiqincə yerinə yetirir.***

Rayonumuzun Nohurqışlaq kəndində doğulub boya başa çatmış gənc və istedadlı rəssam Dilbər Tahirovanın İslam Həmrəyliyi İlinə və IV İslam Həmrəyliyi Oyunlarına həsr etdiyi fərdi sərgisi də bu qəbildəndir.



Sərgidə 70-ə yaxın tikmə, oyma,əl işləri, kətan üzərində rəsm əsərləri, dekorativ- tətbiqi sənət nümunələri nümayiş etdirilir.

Dilbər xanımın sərgisi aprel ayının 8-də Qəbələ Mədəniyyət Mərkəzində açılmışdır. Sərginin açılışında Qəbələ Rayon İcra Hakimiyyətinin rəsmiləri, tanınmış ziyalılar, təhsil və mədəni-maarif müəssisələrinin işçiləri, gənclər, ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Açılış mərasimində Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova, gənc rəssamın əmisi, filologiya elmləri doktoru, professor Abid Tahirli, İsmayıllı Regional Mədəniyyət və Turizm İdarəsinin Qəbələ rayonu üzrə təmsilçisi Nargilə Qafarova, Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti Namiq Muradov və başqaları çıxış etmişlər.

Natiqlər «İslam Həmrəyliyi İli» ilə əlaqədar təşkil edilən bu sərginin əhəmiyyətindən danışmış, sülhü, İslam birliyini, Vətənimizin zəngin təbiətini, adət və ənənələrimizi tərənnüm edən rəsm əsərlərini və əl işlərini yüksək qiymətləndirmişlər. Dilbər Tahirovanın ölkəmizdə keçiriləcək IV İslam Həmrəyliyi Oyunlarına da sərgilədiyi əl əşlərində geniş yer verməsi çıxışlarda xüsusi vurğulanıb. Çıxış edənlər eyni zamanda ümidvar olduqlarını bildiriblər ki, sərgi rayon sakinləri ilə bərabər rayonumuza gələn çoxsaylı yerli və əcnəbi turistlərin də böyük marağına səbəb olacaq.



İsmayıllı rayonunun Vəng kənd orta məktəbində biologiya müəllimi işləyən Dilbər Tahirova çıxışında bildirib ki, hələ uşaqlıq yaşlarından rəsm çəkməyə, toxuma əl işləri və müxtəlif suvenir əşyalar hazırlamağa böyük həvəsi olmuşdur. Valideynləri bu sahəyə olan həvəsinin daha da təkmilləşməsində ona yardımçı olublar. O, «İslam Həmrəyliyi ili» və IV İslam Həmrəyliyi oyunlarına həsr etdiyi bu fərdi sərgisinin təşkilinə dəstək olanlara və açılışda iştirak edənlərə təşəkkür edib.

Dilbər Tahirovanın sərgidə nümayiş olunan müxtəlif mövzulu rəsmləri, balıqqulaqlarından, şüşədən, taxta və digər materiallardan hazırladığı əl işləri tamaşaçılar tərəfində mapraqla qarşılanıb.

✍ **Vüsal SƏMƏDOV.**
📷 **İlkin VƏLİZADƏ.**